**Mirzə M.** Cəsurluğu və şücaəti ilə yaddaşlarda yaşayan şəhidimiz // Respublika. - 2024. - 13 avqust. - **№ 171**. - S. 8.

**Vətən müharibəsində Azərbaycan öz dədə-baba torpaqlarını mənfur düşməndən xilas etdi. Torpaqlarımızın işğaldan azad edilməsində Azərbaycanın vətənpərvər oğulları canlarından keçdilər. Şəhidlik zirvəsinə yüksəlmiş qəhrəmanlarımızdan biri də Elqaş Əliyevdir.**

Elqaş Barat oğlu Əliyev 12 fevral 1999-cu ildə Lerik rayonunun Bırkandul kəndində anadan olub. Lerik rayon Zahid Həsənov adına Bırkandul kənd ümumi orta məktəbində IX sinfə qədər təhsil alıb, ardınca Ənvər Nəciyev adına Vistən kənd tam orta məktəbində orta təhsilini tamamlayıb. Elqaş 18 yaşında həqiqi hərbi xidmətə yollanıb, xidmət müddəti bitdikdən sonra isə müddətdən artıq xidmət edən hərbi qulluqçu kimi orduda fəaliyyət göstərib. 27 sentyabr 2020-ci ildə başlayan Vətən müharibəsində cəbhənin müxtəlif istiqamətlərində şücaət göstərib. Şanlı qələbəyə bir neçə gün qalmış - noyabrın 3-də Xocavənd rayonunun Qırmızı Bazar qəsəbəsi uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

Qardaşı Eldin deyir ki, Elqaş Füzuli, Ağdam, Cəbrayıl, Zəngilan və Laçın dəhlizi uğrunda gedən döyüşlərdə canından keçməyə hazır olduğunu sübut edib və şücaətləri ilə yadda qalıb: "Onun dostları, bir yerdə xidmət apardığı uşaqlar mənimlə danışır, deyirlər ki, Elqaş 14 əsgərlə səngərə düşüb, bütün dostlarının gülləleri qurtarıb. Erməni əsgəri gəlib, Elqaş qapının arxasında pusquda durub, üstünə hücum eləyəndə Elqaş öz avtomatının qundağı ilə düşmənin başına vurub, yerə sərib. Elqaş onların Kalaşnikov pulemyotu ilə erməniləri məhv, 14 əsgərimizi isə xilas edib. Sonra döyüş gedə-gedə 22 şəhidi və 28 yaralını mühasirədən çıxarıb, 10 erməni snayperini təkbaşına vurub. Harada şəhid, yaralı olurmuş, Elqaş deyirmiş ki, onları çıxarmağa birinci mən getməliyəm".

Dediyini də edib, yaralanmış rabitə komandirini də minalanmış ərazidən çiynində çıxardıb. Cəmi 21 yaşı olmasına baxmayaraq, yaşca böyük olan döyüş yoldaşları qorxu nədir bilməyən qəhrəmanın məsləhətlərinə qulaq asır, tapşırıqlarına tabe olurmuşlar.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatıldığı və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Prezident İlham Əliyevin sərəncamları ilə Elqaş Barat oğlu Əliyev ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.